# “Qış nağılı”

5 fevral 2026-cı il tarixdə Heydər Əliyev Fondunun təşkilatçılığı, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının və “Gilan”ın dəstəyi ilə Qəbələdə “Qış nağılı” II Beynəlxalq Musiqi Festivalı öz işinə başlayıb.






2009-cu ildən bu şəhərdə ənənəvi təşkil olunan Qəbələ Beynəlxalq Musiqi Festivalının davamı olaraq Qəbələ Beynəlxalq Musiqi Festivalının təntənəli açılış mərasimi olub.

Açılış mərasimində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, Fondun icraçı direktoru Anar Ələkbərov, Mədəniyyət naziri Adil Kərimli və digər rəsmi şəxslər, tanınmış ictimai xadimlər, Qəbələ sakinləri və qonaqlar iştirak edib.

Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru, Xalq artisti, festivalın bədii rəhbəri Fərhad Bədəlbəyli çıxışında 2009-cu ildə təməli qoyulan və gözəl ənənəyə çevrilən Qəbələ Beynəlxalq Musiqi Festivalının bir qolu olan “Qış nağılı” II Beynəlxalq Musiqi Festivalının mədəniyyətimiz üçün əlamətdar hadisə olduğunu qeyd etmiş, festivalın keçirilməsinə göstərilən kömək və dəstəyə görə Heydər Əliyev Fonduna, Mədəniyyət Nazirliyinə və “Gilan”a dərin təşəkkürünü bildirmişdir.

Rəsmi hissədən sonra musiqisevərlərə əməkdar artist Əyyub Quliyevin dirijorluğu ilə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının Simfonik Orkestrinin ifasında “Viva Opera” adlı konsert proqramı təqdim olunub.

Konsertdə Azərbaycan və Avropa bəstəkarlarının əsərləri səsləndirilib.



Qəbələ “Qış nağılı” II Beynəlxalq Musiqi Festivalı çərçivəsində fevralın 6-da Heydər Əliyev Konqres Mərkəzində gənc pianoçu Əlisahib Bayramovun konserti olub. Əlisahib Bayramov sənəti, istedadı və böyük əzmi ilə hər kəsin rəğbətini qazanmış bir gəncdir. O, “Birgə və Sağlam” İctimai Birliyinin yetirməsi, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin məzunudur. Əlisahib 2019-cu ildə keçirilən “Payız əfsanələri” Beynəlxalq Festivalının qalibidir. İstedad əngəl tanımır. O, öz musiqisi ilə maneələri aşaraq, böyük uğurlara imza atıb. Konsertdə Əlisahib izləyicilərə öz daxili dünyasını və musiqi duyumunu piano dilləri vasitəsilə çatdırmışdır.



Fevralın 6-da Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının təşkilatçılığı, Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və “Gilan”ın dəstəyi ilə keçirilən “Qış nağılı” II Heydər Əliyev Konqres Mərkəzində təşkil edilən konsertdə musiqisevərlərə kamera musiqisi təqdim olunub. Öncə Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının professoru, Xalq artisti Zəhra Quliyeva çıxış edərək, dünya musiqi xəzinəsinə əvəzolunmaz töhfələr verən görkəmli bəstəkar, Xalq artisti Qara Qarayevin əziz xatirəsinə həsr olunduğunu diqqətə çatdırmış və bəstəkarın yaradıcılığından danışıb. Xalq artistləri Fərhad Bədəlbəyli və Murad Adıgözəlzadənin Azərbaycan Dövlət Simli Kvartetinin müşayiəti ilə musiqisevərlər qarşısında çıxışları alqışlarla qarşılanıb.







Qəbələdə keçirilən festival çərçivəsində Azərbaycan ilə İtaliya arasında dostluğu təcəssüm etdirən “Bakı-Neapol: musiqi körpüsü” kamera musiqisi axşamı keçirilib. Heydər Əliyev Konqres Mərkəzində keçirilən konsertdə festivalın təşkilatçı qurumlarının təmsilçiləri, yerli musiqisevərlər, şəhərin qonaqları iştirak ediblər.

* * *

“Qış nağılı” Beynəlxalq Musiqi Festivalının “Azərbaycan-İspaniya: iki ölkə, bir musiqi” adlı yekun konserti olub

Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının təşkilatçılığı, Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və “Gilan”ın dəstəyi ilə Qəbələdə keçirilən “Qış nağılı” Beynəlxalq Musiqi Festivalının fevralın 8-də təntənəli bağlanış konserti keçirilib. “Azərbaycan - İspaniya: iki ölkə, bir musiqi” adlı flamenko-caz musiqi gecəsində Azərbaycan xalq mahnıları, flamenko-caz və muğam improvizələri tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb. Beləliklə, “Qış nağılı” Beynəlxalq Musiqi Festivalı şən notlarla başa çatıb.




**Fotolar S. Umuyevindir.**